Anadolu Türk Eğitim Dergisi
Anatolian Turkish Journal of Education
ISSN:2867-5314

Yıl/Year: 2024 Cilt/Volume: 6 Sayı/Issue: 1 (Nahçıvan Özel Sayısı) ss/pp. 119-125

Makale Geliş Tarihi: 18/03/2024
Makale Kabul Tarihi: 25/05/2024
Makale Yayın Tarihi: 05/06/2024
Makale Türü: Orijinal Araştırma Makalesi

# XX ƏSRIN ƏVVƏLLƏRINDƏ NAXÇIVANDA ERMƏNI-DAŞNAK TƏCAVÜZÜNƏ QARŞI NAXÇIVANSKILƏRIN (KƏNGƏRLILƏRIN) MÜBARIZƏSI*

**İLQAR KƏNGƏRLİ**
Dos.dr. Naxçıvan Dövlət Universiteti,
"Ümumi Tarix" Kafedrası, Azərbaycan/ Naxçıvan
ilqarkengerli7575@gmail.com

## Özet

Naxçıvanskilər (Kəngərlilər) Azərbaycanın hərb tarixinə 6 general bəxş etmişdir. XX əsrin əvvəllərində erməni-daşnaklar Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da türk-müsəlman əhaliyə qarşı qırğınlar törətməklə bölgəni ələ keçirməyə çalışmışdılar. Həmin dövrdə Kəngərlilər, Naxçıvanskilər başda olmaqla qəhrəman Vətən oğulları ayağa qalxaraq Naxçıvanı erməni-daşnak təcavüzündən qorumağa nail olmuşdular. 1905-1906-cı illərdə ermənilərin Naxçıvana qarşı təcavüzünün qarşısının alınmasında Kəngərli nəslindən olan Cəfərqulu xan, Davud xan, Cəmşid xan, Ehsan xan Naxçıvanskilərin çox böyük xidmətləri olmuşdur. 1917-ci ildə çarizmin devrilməsindən sonra Qafqazdakı qeyri-sabitlikdən istifadə edən daşnak quldur dəstələri Andranikin, Njdenin, Dronun, Doluxanovun, başçılığı altında Naxçıvana hücumlar etdilər. Həmin dövrdə Cəfərqulu xan, Rəhim xan, Kalbalı xan, İsgəndər bəy, Böyük xan Naxçıvanskilər, Vəli Ağa, İbrahim paşa Kəngərlilər Naxçıvanda və yerlərdə Milli Komitə və silahlı qüvvələr yaratdılar. 1917-1921-ci illərdə erməni-daşnaklara qarşı xalq müqavimətini təşkil edən əsas qüvvələr Kəngərlilər, Naxçıvanskilərin nümayəndələri olmuşdur. Həmin dövrdə Cəfərqulu xan və digər rəhbərlər bölgənin xilas olunması yolunu Türk qoşunlarının Naxçıvana gəlməsində görürdülər. 1918-ci il mayın ortalarında Türk qoşunlarının Naxçıvana gəlməsi ilə bölgə təhlükədən xilas ola bildi. 1919-cu ilin sonu-1920-ci ilin əvvəllərində Naxçıvana ermənilərin hücumları yenidən intensivləşdi. Bu dövrdə də Cəfərqulu xan, Kalbalı xan, Rəhim xan Naxçıvanskilər sovet işğalına qədər Naxçıvanda əsas hərbi-siyasi qüvvəyə çevrilmişdilər. Bölgənin bolşeviklərin əlinə keçməsi ilə bir çox nəsillər kimi, Kəngərli-Naxçıvanskilərin də faciəli dövrü-repressiya və sürgünlər dövrü başlandı.

**Açar sözlər:** Naxçıvan, Kəngərli, Naxçıvanski, Xan, Osmanlı, Türk ordusu, Erməni-daşnaklar, Soyqırım, Sovet işğalı

# THE STRUGGLE OF THE NAKHCHIVANSKIS (KANGARS) AGAINST THE ARMENIAN-DASHNAK AGGRESSION IN NAKHCHIVAN AT THE BEGINNING OF THE 20TH CENTURY

## Abstract

Nakhchivanskis (Kangarlis) gave 6 generals to the military history of Azerbaijan. At the beginning of the 20th century, Armenian-Dashnaks tried to capture the region by committing massacres against the Turkish-Muslim population in Nakhchivan, as in other regions of Azerbaijan. During that period, the heroic sons of the Fatherland, led by the Kangars and Nakhchivanskis, stood up and managed to protect Nakhchivan from the Armenian-Dashnak aggression. In 1905-1906, Jafargulu Khan, Davud Khan, Jamshid Khan, and Ehsan Khan of Nakhchivanskii from Kangarli generation had great services in preventing the aggression of Armenians against Nakhchivan. After the overthrow of tsarism in 1917, Dashnak bandits, who took advantage of the instability in the Caucasus, attacked Nakhchivan under the leadership of Andranik, Njde, Dron, and Dolukhanov. In that period, Jafargulu Khan, Rahim Khan, Kalbali Khan, Isgander Bey, Boyuk Khan Nakhchivanskis, Veli Agha, Ibrahim Pasha Kangarli created the National Committee and armed forces in Nakhchivan and other places. In 1917-1921, the main forces organizing the popular resistance against the Armenian-Dashnaks were the representatives of the Kangars and Nakhchivanskis. At that time, Jafargulu Khan and other leaders saw the way to save the region in the arrival of Turkish troops in Nakhchivan. With the arrival of Turkish troops in Nakhchivan in mid-May 1918, the region was saved from danger. At the end of 1919-early 1920, Armenian attacks on Nakhchivan intensified again. During this period, Jafargulu Khan, Kalbali Khan, Rahim Khan Nakhchivanski became the main military and political force in Nakhchivan until the Soviet invasion. With the transfer of the region to the hands of the Bolsheviks, the Kangarli-Nakhchivanskis, like many generations, began a tragic period - a period of repression and exile.

**Keywords:** Nakhchivan, Kangarli, Nakhchivanski, Khan, Ottoman, Turkish army, Armenian-Dashnaks, Genocide, Soviet occupation

**Atıf / Citation**

Kengerli, İ. (2024). XX Əsrin Əvvəllərində Naxçıvanda Erməni-Daşnak Təcavüzünə Qarşı Naxçıvanskilərin (Kəngərlilərin) Mübarizəsi. *Anadolu Türk Eğitim Dergisi*, *6* (1), 119-125.

Kengerli, İ. (2024). (2024). The Struggle of the Nakhchivanskis (Kangars) Against The Armenian-Dashnak Aggression in Nakhchivan at the Beginning of The 20th Century. *Anatolian Turkish Journal of Education*, *6* (1), 119-125.

---

* Bu çalışmada "Yükseköğretim Kurumları Bilimsel Araştırma ve Yayın Etiği Yönergesi" kapsamında uyulması belirtilen tüm kurallara uyulmuştur.

## Giriş

Azərbaycan xalqının mənşəcə fomalaşmasında və etnogenezində çox mühüm mövqe tutan, öz hünərləri ilə tarixdə iz qoyan və bütün orta əsrlər boyu Naxçıvan diyarının ictimai-siyasi həyatında aparıcı rola malik olmuş qədim türk tayflarından biri Kəngərlilər olmuşdur.

Xalqımızın hərb tarixində bu tayfanın süvariləri böyük şücaətləri ilə seçilmiş və çox nüfuzlu, adlı-sanlı sərkərdələr yetirmişdilər. Təkcə onu demək kifayətdir ki, Naxçıvanskilər (Kəngərlilər) Azərbaycan hərb tarixinə 6 general bəxş etmişdir (Kəngərli, 2005; s. 226).

1828-ci il Türkmənçay müqaviləsinin bağlanmasından sonra Naxçıvan xanlığı Rusiyaya birləşdirildi. Artıq bu təsdiqini tapmış bir faktdır ki, ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi prosesi də bu dövrdən başlanmışdır.

Araşdırmalar göstərir ki, Rusiya-İran razılaşmasına əsasən ermənilərin Naxçıvana köçürülməsinə nə yerli əhali, nə də Naxçıvan xanları razı olmayıblar. Lakin çarizmin zorakılıq siyasətinin nəticəsində bu köçürülmə kompaniyası baş tutmuşdur. Zorla Naxçıvanı Azarbaycandan qopara bilməyən xarici dövlətlər bunu dindaşları ermənilərin bu ərazilərə yerləşdirilməsi siyasətilə həyata keçirməyi planlaşdırmışdılar. Köçürülən ermənilər isə namərdlik, xəyanat edərək xalqımızın aleyhinə və torpaqlarımızın parçalanmasına xidmət edən mənfur əməllərlə məşğul olmuşdular.

XX əsrin əvvəlləri Naxçıvanın ictimai-siyasi həyatının ən gərgin dövrlərini təşkil edir. Məhz bu dövrdə erməni-daşnakları çarizmin açıq-aşkar dəstəyindən istifadə edərək Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvanda da etnik münaqişələri qızışdırmağa, türk-müsəlman əhaliyə qarşı soyqırım siyasəti yeritməklə bölgəyə qarşı tarixi ərazi iddialarını silah gücünə zorakılıqla təmin etməyə başlamışdılar. Belə bir mürəkkəb dövrdə Kəngərlilər, Naxçıvanskilər başda olmaqla qəhrəman naxçıvanlılar öz vətəninin və millətinin müdafiəsinə qalxaraq Naxçıvanı erməni təcavüzündən qorumağa nail olmuşdular. Bu işdə II Kalbalı xanın oğulları Cəfərqulu xanın və Rəhim xanın, Cəfərqulu xanın oğulları Kalbalı xanın, Davud xanın, Cəmşid xanın, Ehsan xanın, xidmətləri çox böyük olmuşdur (Kəngərli, 2005; s. 231).

Cəfərqulu xan Kalbalı xan oğlu Naxçıvanski atası və qardaşı kimi Peterburq Paj hərbi məktəbini bitirmiş və rotmistr rütbəsinə kimi yüksəlmişdir. 19-cu əsrin 80-ci illərinin sonlarında Naxçıvana qayıdan Cəfərqulu xan 1897-ci ildə Naxçıvan şəhər qlavası (başçısı) seçilmiş və uzun illər bu vəzifədə çalışmışdır. Bu vəzifədə işlədiyi zaman Naxçıvanın iqtisadi-mədəni inkişafındavə xeyriyyə işlərində mühüm rol oynamışdır. Cəfərqulu xanın ən böyük xidmətlərindən biri də 1905-1906-cı illərdəermənilərin Azərbaycana qarşı təcavüzkar hərəkətlərinin qarşısını mərdlikləalması olmuşdur. Məlum olduğu kimi ermənilərin öz niyətlərini həyata keçirmək üçün ən çox önəm verdikləri bölgə müsəlman-türklərin əksəriyyət təşkil etdiyi Naxçıvan bölgəsi idi. Naxçıvanda etnik, hərbi siyasi vəziyyəti öz xeyirlərinə dəyişmək üçün daşnaklar əsrin əvvəllərində burada fəal hərəkətlərə başlamış, buradakı kazak dəstələrini öz tərəflərinə çəkməyə nail olmuşdular. Belə şəraitdə Cəfərqulu xan azərbaycanliları real təhlükədən qorumaq üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. Erməni-azərbaycanlı münaqişəsinin ilk günlərində, 1905-ci ilin əvvəllərində onun bilavasitə təşəbbüsü və başçılığı ilə hər iki millətin nümayəndələrindən ibarət barışıq komissiyası yaradılmışdı (Kaspiy qəzeti, 1906 ).

1905-ci ilin mayında hadisələrin ən qızğın çağında Cəfərqulu xan İrəvan qubernatorluğunun, Zaqafqaziya canişinliyinin, hərbi komandanlığının nümayəndələrini, din xadimlərini Naxçıvana dəvət edərək, onlarla birgə azərbaycanlılar və ermənilər yaşayan kəndləri bir-bir gəzərək əhalini sülhə, əmin-amanlığa çağırmışdı. Cəfərqulu xanın və digər nüfuzlu naxçıvanlıların səyi nəticəsində ermənilər Naxçıvanda tam məğlubiyyətə uğramışdılar. Belə şəraitdə erməni liderləri Cəfərqulu xana müraciət edərək, ondan "müsəlman əhaliyə təsir göstərməyi" xahiş etmişdilər (Kaspiy qəzeti, 1906 ).

Beləliklə, bölgədə "qabaqca müharibə elan etmiş ermənilər, nəhayət büsbütün məğlub olaraq milli səhifələrinə qara bir xətt çəkdirdilər" (Ordubadi, 1991, s. 23).

Lakin ermənilər bu məğlubiyyətləri ilə barışmayaraq, öz təcavüzkarniyyətlərini həyata keçirmək üçün əlverişli fürsət gözləyirdilər. Belə bir fürsət 1917-ci ildə çarizmin devrilməsindən sonra yarandı. Qafqazda yaranmış qeyri-sabitlikdən istifadə edən daşnaklar Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvanda da öz fitnəkar fəaliyyətlərini genişləndirməyə, bu qədim türk diyarını silah gücünə

ilhaq etmək üçün fəal hərəkatlara başladılar. Öz məkrli niyyətlərini gerçəkləşdirmək üçün ermani quldur dəstələri Andronikin, Nijdenin, Dronun, Doluxanovun və b, başgılığı altında müxtəlif istiqamatlərdən Naxçıvana hücumlar etmiş, onlarla kəndi dağıtmış, on minlərlə günahsız, silahsız azərbaycanlını qəddarlıqla qətlə yetirmiş, öz yurd-yuvalarından didərgin salmışdılar.

Belə fəlakətli bir dövrdə Naxçıvanın qeyrətli vətənpərvər oğulları əldə silah ermənilərin tacavüzünə qarşı mübarizəyə qalxmış, Naxçıvanı məhv olmaq təhlükəsindən xilas etmişdilər. Tarixin ən mürəkkəb dövrlərində olduğu kimi, 1917-1921-ci illərdə də erməni tacavüzünə qarşı xalq müqavimətini təşkil edən əsas qüvvələr Kəngərlilər, Naxçıvanskilər nəslinin nümayəndələri oldular. Erməni təcavüzünün başladığı ilk günlərdən Cafərqulu xan, Rəhim xan, Kalbalı xan, İskəndər bəy, Məhəmmədəli xan, Böyük xan Naxçıvanskilər, Vəliağa, İbrahim paşa Kəngərlilər və başqaları Naxçıvan şəhərində və yerlərdə Milli Komitə və onun bölmələrini yaradaraq faktiki olaraq idarəetmə funksiyalarını öz əllərində cəmləşdirmiş, ermənilərin tacavüzkar separatçı hərəkatlarının qarşısını almaq, müsəlman əhalini real genosid təhlükəsindən qorumaq üçün silahlı qüvvələr yaratmışdılar. Naxçıvan Milli Komitəsinə Cəfərqulu xan, silahlı qüvvələrə isə Kalbalı xan başçılıq etmişdir. Zaqafqaziya Komissarlığının Naxçıvan qəzasındakı nümayəndəsi bu vəziyyətdən narahat olaraq Zaqafqaziya Komissarlığının sədrinə göndərdiyi teleqramda yazmışdı ki, "Naxçıvan xanları açıqca bildirirlər ki, onlar türklərin və Maku xanının göstərişinə əsasən hərəkət edirlər. Seymi və Rusiyanı tanimaq istəmirlər" (Mədətov, 1957, s.33).

1918-ci ilin martında silahlı erməni dəstələrinin özbaşınalığının qarşısını almaq məqsədi ilə Cəfərqulu xan Maku sərdarına müraciət edərək ondan kömək istəmişdi. Həmin il martın 26-da Milli Komitənin iclasında müdafiə komitəsi yaradılmış, Cəfərqulu xanın qardaşı Rəhim xan Naxçıvan Müdafiə Komitəsinin (Ərkani - hərb) rəisi, Hacı Mehdi Bağırov isə müavini təyin olunmuşdular.

Tezliklə Əkbər xan Naxçıvanskinin Makudan silahlı qüvvə gətirməsi, Osmanlı qüvvələrin Naxçıvana yaxınlaşması ermənilərin hərəkətlərinin qabağını almışdı. Məlum olduğu kimi, həmin dövrdə Osmanlı qoşunları Cənubi Azərbaycanda ingilislərə qarşı hərbi əməliyyatlar aparırdı. Cəfərqulu xan o zaman Makuya gedərək Maku sərdarının vasitəçiliyi ilə Türk komandanlığı ilə əlaqə yaratmış və türk qoşunlarının tezliklə Naxçıvana gəlməsini xahiş etmişdi. Bu sübut edir ki, Cəfərqulu xan və Naxçıvanın digər siyasi rəhbərləri məhv olmaq təhlükəsindən xilas olmağın yeganə yolunu türk qoşunlarının bölgəyə gəlməsində görürdülər. 1918-ci ilin mayın ortalarında türk qoşunları Naxçıvana gəldikdən sonra bölgədə müvəqqəti sakitlik yaranmış, lakin Andronikin hücumları nəticəsində vəziyyət yenidən gərginləşmişdi. Tezliklə türk qoşunları yerli qüvvələrlə birgə erməniləri vurub Naxçıvandan çıxarmağa nail oldular. Bölgə bütünlüklə Osmanlı hərbi qüvvələrin nəzarəti altına keçdikdən sonra burada yeni inzibati idarəetmə sistemi yaradılmış, iyul ayının 11-də türk zabiti Sürəyya bəy Hökuməti-Məhəllə rəisi, Cəfərqulu xan isə Bələdiyyə rəisi təyin olunmuşdular. Jandarm komandanlığına isə Məhəmmədəli xan Kəngərli irəli sürülmüşdü. Bir müddətdən sonra avqustun 11-də Rəhim xan Bələdiyyə rəisi vəzifəsində qardaşını əvəz etmişdi (Əliyev, 1992, s.73).

Lakin Türkiyənin I Dünya Müharibəsində məğlubiyyəti, onun qoşunlarının Cənubi Qafqazı, o cümlədən Naxçıvanı tərk etmələri ilə əlaqədar olaraq bölgənin ərazisi və əhalisinin taleyi üçün təhlükə yenidən reallaşmış, ermənilərin hücumları yenidən genişlənmişdi. 1918-ci ilin sonu - 1919-cu ilin əvvəllərində Doluxanovun daşnak qoşunları Qəmərlini, Vedibasarı, Dərələyəzi işğal etdikdən sonra Naxçıvanın hüdudlarina soxulmuş, Andronik isə Zəngəzurdan hücuma keçərək Ordubadı təhlükə altına almışdı. Belə şəraitdə Naxçıvanda 1919-cu ilin yanvarında bütün bölgələrdən gəlmiş nümayəndələrdən ibarət Milli Şura yaradılmış, Kəngərlilərdən olan Əmirbəy Vəzirov onun sədri seçilmişdi. Lakin tezliklə Milli Şura öz səlahiyyətlərini "Naxçıvan Türk Hökümәti" adlanan quruma verməli olmuşdu. Bu hakimiyyət orqanının sədri Cəfərqulu xan, onun müavini Abbasqulu bəy Tahirov, baş komandanı Kərim xan, onun müavini Kalbalı xan, Xarici işlər Naziri Bəhram xan olmuşdur (Əliyev, 1992, s. 109).

Kalbalı xanın başçılığı altında 400 nəfərlik silahlı qüvvə qanlı döyüşlərdən sonra ermənilərin qabağını almış və onları Arazdəyəndən geri oturtmuşdu. Bu döyüşlərdə göstərdiyi igidliyə görə Kalbalı xan xalq tərəfindən qəhrəman elan edilmişdi.

I Dünya Müharibəsindən sonra Cənubi Qafqazı öz nüfuz dairələrinə daxil edən İngiltərə və ABŞ yaranmış şəraitdən istifadə edərək Bakıdan əlavə Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində dəmöhkəmlənməyə çalışırdılar. Özlərini bitərəf elan etmələrinəbaxmayaraq, onlar Naxçıvanın

Ermənistana ilhaq edilməsi barədə daşnak planlarını müdafiə edirdilər. Bölgənin ermənilərə verilməsi haqqında fikirlərin real olduğunu başa düşən Naxçıvanın siyasi liderləri Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olduğunu qəti şəkildə bildirmişdilər. 1919-cu il fevralın 26-da Cəfərqulu xan və Milli Şuranın digər üzvləri Naxçıvana general-qubernator təyin edilmişLautenə məktub göndərərək müsəlmanların arzusunu əks etdirərək bölgənin Ararat Respublikasına verilməsinə etirazlarını bildirmiş vəgöstərmişdilər ki, "müsəlmanlar, heç bir cəhətdən bizdən üstün olmayan, əksinə, bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər". Məktubda bütün azərbaycanlı əhalisinin iradasi ifadəolunurdu: "İndi yaşayan və gələcəkdə yaşayacaq nəsillərimizin səadəti naminə Azərbaycan Respublikasına birləşmək" (9 s.107).

Eyni zamanda Azərbaycan hökuməti bölgə iləəlaqələri möhkəmləndirmək üçün bir sıra iqtisadi, siyasi, diplomatik tədbirlər həyata keçirmiş, Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu yaratmışdı. Azərbaycan hökumətinin 28 fevral 1919-cu il tarixli qərarı ilə Bəhram xan Naxçıvanski general-qubernator təyin edilmiş (martın16-da onun yerinə Zaqatala general-qubernatoru Haşimbəyov təyin edilmişdi - I.K.) mart ayının 31-də isə Kalbalı xan Naxçıvanski qubernatorun hərbi işlər üzrə köməkçisitəyin edilmişdi (Musayev, 1996, s 283).

Lakin naxçıvanlıların və Azərbaycan hökumətinin ciddi etirazlarına baxmayaraq müttəfiqlər Naxçıvanı daşnak hökumətinə tabe etdirməyə, qisa müddətə burada erməni idarəçiliyi yaratmağa nail oldular. Erməni idarəçiliyinin ilk günlərindən azərbaycanlılara qarşı kütləvi qırğınlar və represiyalar baş verdi. Tezliklə Naxçıvan əhalisi erməni işğalçılarına qarşı azadlıqmüharibasinə başladı. Yerli liderlərin, o cümlədən Kalbalı xanın başçılığı altında sayı 10 minə çatan könüllülər ordusu türk hərbi dəstələri ilə birgə ermənilərə qarşı bir sıra uğurlu əməliyyatlar həyata keçirdilər. Qarakeşişovun, Humba paşanın, Şelkovnikovun komandanlıq etdiyi erməni nizamlı qoşun hissələrinə sarsıdıcı zərbələr endirildi. Tezliklə bütün Naxçıvan torpağı ermənilərdən azad edildi və burada Azərbaycanın hakimiyyəti bərqərar oldu. Bölgənin azad edilməsində müstəsna xidmətlərini nəzərə alaraq Azərbaycan hökuməti Kalbalı xana general rütbəsi vermiş, o, Naxçıvan qoşunlarının baş komandanı türk zabiti Xəlil bəyin köməkçisi təyin edilmişdi (Hacıyev, 1994, s. 85).

1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində ermənilərin Naxçıvana hücumlari yenidən intensivləşməyə başlamışdı. Xüsusən Ordubad bölgəsində ağır hərbi vəziyyət yaranmışdı. 1920-ci ilin martında Kalbalı xanın Naxçıvandan göndərdiyi könüllülər yerli qüvvələrlə birgəerməniləri darmadağın edərək geri oturtmuşdular. Digər cəbhələrdə dəermənilər ağır məğlubiyyətə uğramışdılar. Həmin dövrdə Cəfərqulu xan, Kalbalı xan, Rəhim xan Naxçvanskilər Sovet işğalına qadər Naxçıvanda əsas hərbi-siyasi qüvvəyə çevrilmişdilər.

Bölgənin bolşeviklərin əlinə keçməsi ilə bir çox nəsillər kimi Kəngərli-Naxçıvanskilərin də faciəli dövrü başlandı. Naxçıvan ölkə İnqilab Komitəsinin 28 avqust 1920-ci il tarixli qərarı iləkeçmiş, Milli Komitənin üzvləri həbs edilirlər. Cəfərqulu xan, Rəhim xan, İskəndər xan Naxçıvanskilər və Ibrahim paşa Kəngərlinin sürgün edilməsi qərara alındı. Cəfərqulu xanın digər oğlu Davud xan Azərbaycan Ordusunun zabiti olmuşdu və 1920-ci ildə ermənilər tarəfindən qətlə yetirilmişdir.

Cəmşid xan Naxçıvanski Kəngərli nəslindən olan sonuncu generaldır.Cəmi 43 il ömür sürmüş Cəmşid xan onun 26 ilini hərbi xidmətə həsr etmişdi. Cənub-Qərb cəbhəsi dağıldıqdan sonra ştabrotmistr C.Naxçıvanski başçlh etdiyi süvari alayı ilə birgə Azərbaycana qayıtmış 1918-ci il sentyabrında Bakının düşmənlərdən azad edilmasində iştirak etmişdir. Onun başçılıq etdiyi alay Qarabağın daşnak hərbi dəstələrindən təmizlənməsində fəal iştirak etmişdi. Stalin rejiminin represiya dalğası C.Naxçıvanskidən də yan keçmədi. Ona 1938-ci ilavqustun 26-da ölüm hökmü kəsilmişdi (Ivanov, 2007, s.23-25).

C.Naxçıvanskinin kiçik qardaşı Ehsan xan Naxçıvanski də peşəkar hərbiçi idi. O, Moskvada kadet korpusu məktəbini bitirmiş və podpolkovnik rütbəsindək yüksəlmişdi. Podpolkovnik Ehsan xan Qarabağın daşnaklardan azad edilməsində bilavasitə iştirak etmişdir. Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Azərbaycan Cümhuriyyətinin bir çox igid oğulları kimi Ehsanxan da həbs edilmiş, müsavat zabiti olduğuna görə amansızcasına qətlə yetirilmişdir.

Nəhayət, gec də olsa, 50-ci illərdə Stalin represiyasının bir çox günahsız qurbanları kimi Naxçıvanski və Kəngərlilərin də nümayəndələrinə bəraət verildi. 1971-ci ildə Azərbaycanın o zamankı rəhbəri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda açılmış hərbi məktəbə C.Naxçıvanskinin adı verildi,

Naxçıvan şəhərində isə C.Naxçıvanskinin ev muzeyi açıldı.

Yada saldığımız bu hadisələr artıq tarixə dönmüşdür və bu tarix vətənimizin bir parçası olan Naxçıvanın tarixidir. Lakin tarix davam edir.

27 sentyabr 2020-ci ildə başlamış və 44 gün davam etmiş ikinci Qarabağ müharibəsi isə Vətən tariximizin yeni səhifəsidir. Ali Baş Komandan İlham Əliyevin ətrafında "dəmir yumruq" kimi birləşən xalqımız, Azərbaycan əsgərinin rəşadəti və hünəri sayəsində yeni tariximizin şanlı zəfər səhifəsini: Bütöv Müstəqil Azərbaycanın yeni tarixini yazdı.

## Kaynakça

Azerbaijan Democratic Republic. (1998). *Legislative Acts*. Baku.

Əliyev, M. B. (1992). *Qanlı günlərimiz*. Bakı.

Hacıyev, A. (1994). *Qars və Araz Türk Respublikaları tarixindən*. Bakı.

Ivanov, R. N. (2007). *In the Name of the Union of Soviets*. Moscow.

*Kaspiy* qəzeti. (1906, May 18, 20). No. 14.

Kəngərli, I. (2005). *Kəngərli elinin soy kitabı*. Bakı.

Mədətov, Q. (1957). *Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili*. Bakı.

Musayev, İ. (1996). *Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)*. Bakı.

Ordubadi, M. S. (1991). *Qanlı illər*. Bakı.

## ƏDƏBİYYAT SİYAHISI

«Kaspiy» qəzeti, 1906, 25 fevral, №14

11.Hacıyev A. Qars və Araz Türk Respublikaları tarixindən. Bakı, 1994

Əiyev M.B. Qanlı günlərimiz. Bakı, 1992

in təşkili, Bakı, 1957

Kəngərli I. Kəngərli elinin soy kitabı. B. 2005

M.S. Ordubadi. Qanlı illər. Bakı, 1991

Mədətov Q. Naxçıvanda Sovet hakimimyyətinin qələbəsi və Naxçıvan MSSR-

Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi

vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı, 1996

Азербайджанская Демократическая Республика. Законодательные акты. Баку, 1998

Иванов Р.Н. Именем Союза Советских. Москва, 2007

**Extended Abstract**

Nakhchivanskis (Kangarlis) gave 6 generals to the military history of Azerbaijan.

At the beginning of the 20th century, Armenian-Dashnaks tried to capture the region by committing massacres against the Turkish-Muslim population in Nakhchivan, as in other regions of Azerbaijan. During that period, the heroic sons of the Fatherland, led by the Kangars and Nakhchivanskis, stood up and managed to protect Nakhchivan from the Armenian-Dashnak aggression.

In 1905-1906, Jafargulu Khan, Davud Khan, Jamshid Khan, and Ehsan Khan of Nakhchivanskii from Kangarli generation had great services in preventing the aggression of Armenians against Nakhchivan. After the overthrow of tsarism in 1917, Dashnak bandits, who took advantage of the instability in the Caucasus, attacked Nakhchivan under the leadership of Andranik, Njde, Dron, and Dolukhanov. In that period, Jafargulu Khan, Rahim Khan, Kalbali Khan, Isgander Bey, Boyuk Khan Nakhchivanskis, Veli Agha, Ibrahim Pasha Kangarli created the National Committee and armed forces in Nakhchivan and other places.

In 1917-1921, the main forces organizing the popular resistance against the Armenian-Dashnaks were the representatives of the Kangars and Nakhchivanskis. At that time, Jafargulu Khan and other leaders saw the way to save the region in the arrival of Turkish troops in Nakhchivan.

With the arrival of Turkish troops in Nakhchivan in mid-May 1918, the region was saved from danger.

At the end of 1919-early 1920, Armenian attacks on Nakhchivan intensified again. During this period, Jafargulu Khan, Kalbali Khan, Rahim Khan Nakhchivanski became the main military and political force in Nakhchivan until the Soviet invasion.

With the transfer of the region to the hands of the Bolsheviks, the Kangarli-Nakhchivanskis, like many generations, began a tragic period - a period of repression and exile.